Viktor Frankl

HƏYATA “HƏ” DEMƏK

Psixoloq konslagerdə

Tərcüməçi:
Aynur Hacılı

QANUN NƏŞRİYYATI

Viktor E. Frankl

...TROTZDEM JA ZUM LEBEN SAGEN

Əsər Viktor Franklın II Dünya müharibəsi zamanı düşdüyü, qeyri-insani mövcudluğun hökm sürdüyü və sağqalma ehtimalının cüzi olduğu nasist konslagerlərindəki müşahidələri və təəssüratlarından bəhs edir.

"Psixoloq konslagerdə" – bu kitabın altbaşlığı belədir. Bu hekayə real hadisələrdən daha çox, təəssüratlar haqqındadır. Kitabın məqsədi milyonlarla insanın başına gələnləri açmaq və göstərməkdir. Əsərdə konslager burada bəhs olunanların hamısını şəxsən öz üzərində təcrübədən keçirmiş bir insanın nəzər nöqtəsindən göstərilir. Bu kitab konslagerlərin yetərincə danışılmış qlobal dəhşətlərini deyil, əzab dolu düşərgə həyatının məhbusun mənəvi vəziyyətinə təsirini əks etdirir.

Kitaba həm də Franklın "Birkenvaldda sinxronlaşdırma" adlı fəlsəfi pyesi də daxil edilib.

MÜNDƏRİCAT

Ön söz. RUHUN İNADKARLIĞI 9
PSİXOLOQ KONSLAGERDƏ 16
Naməlum məhbus 16
Aktiv və passiv seçim 18
119104 saylı məhbusun hesabatı (psixoloji təcrübə) . 21

BİRİNCİ FAZA: DÜŞƏRGƏYƏ GƏLMƏ
Auşvits stansiyası 27
Birinci seleksiya..... 32
Dezinfeksiya 36
İnsana nə qalır: çılpaq mövcudluq 38
İlk reaksiyalar..... 40
«Məftilin üzərinə atılmaq»? 43

İKİNCİ FAZA: DÜŞƏRGƏDƏ HƏYAT 48
Apatiya 48
Nə əzab verirdi 53
Nifrətin ağırlığı 55
Məhbusların xəyalları 61
Aclıq 63
Seksuallıq 68
Hər cür sentimentallıqdan kənar 68
Siyasət və din 70
Spiritik seans 73
Özünə qapanma 74
Hər şey əlimizdən alınanda... 76
Xəndəkdə meditasiyalar 79
Sübh vaxtı monoloq 82
Konslagerdə incəsənət 83
Düşərgə yumoru 86
Biz məhbuslara həsəd aparırıq 90
Xoşbəxtlik – daha pisi səndən yan ötübsə 92
Səpmə yatalaq düşərgəsinə? 96
Tənhalıq arzusu… 99
Tale insanla oynayır 102

Əzbərlənmiş son arzu 106
Qaçış planı 109
Əsəbilik 119
Daxili azadlıq 124
Tale bir hədiyyədir 129
Müvəqqəti mövcudluğun analizi 133
Spinoza tərbiyəçi kimi 138
Həyatın mənası haqqında sual vermək 145
İztirab bir hünər kimi 147
İntizar 148
Vaxtında deyilmiş söz 150
Ruhun müalicəsi 152
Düşərgə mühafizəsinin psixologiyası 156

ÜÇÜNCÜ FAZA: AZAD EDİLDİKDƏN SONRA..162
“Buraxdı”… 166

BİRKENVALDDA SİNXRONLAŞDIRMA 172
Metafizik konfrans 172

Ön söz
RUHUN İNADKARLIĞI

Bu kitab, insan tərəfindən
yaradılmış bir sıra görkəmli
əsərlərin sırasına daxildir

Karl Yaspers

Xoşbəxtdir o kəs ki, o bu dünyanı,
Ən çətin anında edib ziyarət.
Mələklər çağırıb həmin insanı,
Şənlik süfrəsində olsun həmsöhbət.

F.İ.Tyutçev

Dahi insanın dahi kitabı qarşınızdadır. Onun müəllifi – yalnız görkəmli alim deyil: dünyanın müxtəlif universitetləri tərəfindən təltif edildiyi fəxri elmi dərəcələrin sayına görə, psixoloq və psixiatrlar arasında tayı-bərabəri yoxdur. O, sadəcə, dünya şöhrəti qazanmış biri deyil: onun 31 kitabı dünyanın onlarla dilinə tərcümə olunub. O, bütün dünyanı dolaşıb, görkəmli şəxsiyyətlərin çoxu və yüksək ictimai mövqeyi olan nüfuzlu insanlar, Karl Yaspers, Martin Haydeqqer kimi məşhur filosof-

lardan tutmuş, VI Papa Pavel və Hillari Klinton da daxil olmaqla, siyasi, dini liderlərə qədər hər kəs onunla görüşə can atıb. Viktor Franklın ölümündən on ildən az bir müddət keçməsinə baxmayaraq, az insan tapılar ki, onun XX əsrdə insanlığın görkəmli mənəvi müəllimlərindən biri olması faktını dansın. O, təkcə mənanın psixoloji nəzəriyyəsini və ona əsaslanan insan fəlsəfəsini qurmayıb, həm də öz həyatında məna tapmaq istəyən milyonlarla insanın gözünü açıb.

Viktor Frankl ideyalarının aktuallığını böyük şəxsiyyətin bu ideyalara gur əks-səda vermiş yer, zaman və hərəkət şərtləri ilə unikal qarşılaşması müəyyən edir.

O, uzun bir ömür yaşamağa müvəffəq olub, onun doğum və ölüm tarixləri – 1905-1997 – az qala XX əsri bütövlükdə ehtiva edir. Demək olar ki, o, bütün ömrünü bir neçə inqilabın və iki dünya müharibəsinin episentri olan Vyanada, 40 illik soyuq müharibənin cəbhə xətti yaxınlığında yaşayıb.

O, bütün bunlardan keçdi və hər şeyə rəğmən sağ qalaraq bütün yaşantılarını kitablara və ictimai mühazirələrə çevirdi. Viktor Frankl yüzilliyin bütün faciəsini öz üzərində təcrübədən keçirdi.